https://doi.org/10.59849/2710-0820.2026.1.137

**Nərgiz Axundova**
*Akademik, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya institutu*
*ORCID 000-0003-0240-4925*

**Aydın Əlizadə**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya institutunun*
*"Azərbaycanın VII-XIV əsrlər tarixi" şöbəsinin böyük elmi işçisi*
*ORCID 0009-0004-1321-6262*

# XİLAFƏTİN XARİCİLƏRLƏ MÜCADİLƏSİNDƏ AZƏRBAYCANA AİD XÜSUSLAR HAQQINDA

***Açar sözlər:*** *xaricilik, Ərəb Xilafəti,Azərbaycan, Cəzirə, erkən islam, siyasi-dini hərəkatlar*

**Giriş**

Ərəb Xilafətinin erkən tarixində daxili siyasi-dini parçalanmalar və mərkəzi hakimiyyətə qarşı çıxışlar yalnız İraq və Hicaz miqyasında qalmamış, qısa müssət ərində Xilafətin sərhəd bölgələrində-xüsusilə Cəzirə-Azərbaycan xəttinə də sirayət etmişdir. Bu baxımdan xaricilik hərəkatı hən ideolojı şüarları, həm də sosial dayaqları etibarilə Xilafətin siyasi sabitliyini sarsıdan əsas daxili amillərdən biri kimi çıxış etmış, mərkəzin hərbi-inzibati siyasətinə uzunmüddətli təsir göstərmişdir. Mənbələrdə Azərbaycan ərazilərinin bir sıra erkən "xarici" yönlmələrinin, geri çəkilmə və yeniən toparlanma marşrutlarının ünvanı kimi hallanması isə bölgədə bu hərəkat üçün müəyyən sosial və inzibati zəminin mövcudluğunu göstərir.

Problemin aktuallığı ondan ibarətdir ki, "xariçilər" haqqında məlumatların böyük hissəsi onların öz mənbələrindən deyil, əks mövqedə dayanmış orta əsr müsəlman tarixçiləri və məzhəb müəlliflərinin əsərlərindən gəlmişdir. Xarici müəllif irsinin əhəmiyyətli hissəsinin məhf edilməsi səbəbindən əldə olan xəbərlər parçalı və polemik xarakterlidir. Buna gğrə də Azərbaycanla bağlı epizodik məlumatların sistemli təhlili, onların Xilafətin ümumi daxili siyasəti və sərhəd idarəşiliyi ilə əlaqədə araşdırılması xüsusi elmi əhəmiyyə kəsb edir.

Tədqiatın **əsas istiqaməti** "xaricilik" hərəkatının ideoloji, sosial və siyası xüsusiyyətlərinin Xilafətin şimal sərhəd zonasında-Cəzirə və Azərbaycan bölgəsində -necə təzahür etdiyini müəyyən etməkdir. Araşdırmada "xaricilik" yalnız dini-məzhəbi cərəyan kimi deyil, eyni zamanda sosial narazılıq, qəbilə rəqabəti və mərkəzi hakimiyyətlə münasibətlər fonunda formalaşmış siyasi hərəkat kimi qiymətlərndirilir. Əsas məqsəd isə Xilafətin xaricilərlə mübarizəsi kontekstibdə Azərbaycana aid xüsusiyyətləri mənbələr əsasında üzə çıöarmaq, bu hərəkatın bökgədə yayılması yolları, sosial dayaqlarını və fəaliyyət formalarını sistemləşdirməkdir. Bu məqsəddən çıxış edərək məqalədə xariciliyin ideoloji əsaslandırılmasında Quran ayələrinə istinad və "hakimlik" məsələsinə, hərəkatın sosial bazasının bədəvi ərəb qəbilləri və ordu şəhərlərinin narazı təbəqəri ilə bağlılığına, Cəzirə-Azərbaycan inzibati bağlılığınnın xarici cıxı.larının coğrafiyasının təsirənə və Azərbaycan ərazilərinin  xarici dəstələr üçün geri cəkilmə, gizlənmə və təblığat məkanı kimi vəzifəsinə xüsusi fikir verilmışdir.

Xronoloji çərçivə əsasən VII ortalarından VIII əsrin sonunadək olan dövrü, məkan çərçivəsi isə Cəzirirə, Azərbaycan, Mosul ətrafı və Rey istiqamətini əhatə edir.

Tədqiqatın **metod və mənbə bazası.** Tədqiqat erkən orta əsr İslam tarixçiliyinə aid xronika və bioqrafik-məzhəb əsərlərinin məlumatlarına əsasən araşdırılmışdır. Hadisələr həmin faktlar və xəbərlər əsasında izlənmiş,  müəlliflərin rəvayətləri müqayisə edilərək, qiymətləndirilmişdir. Azərbaycan üzrə müasir elmi araşdırmalar bölgənin inzibati və ictimai-siyasi fo-

nunun aydınlaşdırılmasında mənbə kim istifadə olunmuşdur.

Tarixi-tənqid metodu əsas götürülmüş, mənbə müəlliflərinin mövqeyi nəzərə alınmışdır. Sosial tarix yanaşması tətbiq edilərək xariciliyin yalnız təriqət deyil, həm də sosial-siyasi hərəkat olduğu göstərilmişdir. Siyasi-coğrafi təhlil Cəzirə-Azərbaycan xəttinin sərhəd zonası kimi fəaliyyətini, xaricilərin keçdiyi yolların istiqaməti kimi qeyd etmışdir. İdeoloji baxımdan isə Allahın adından istifadə siyasi leqitimlık mübahisəsində istifadə olunması şərh olunmuşdur.

**Tədqiqat**

Ərəb Xilafəti yaradılışının ən erkən çağından, zaman etibarı ilə ordularının yürüşləri dövrünü müşayət etmiş daxildəki "münafiq" - (islamı çarə qalmadan, üzdə qəbul edənlər - Ə.A.) fitnələriylə çarpışmalı olmuşdur. Raşidi xəlifələrdən üçünün qətli, daxildəki əks cəbhənin müxtəlif qütblərini təmsil etmiş zümrələr tərəfindən Xilafət dayaqlarının möhkəmlənməsinə qarşı vurulmuş olan zərbələr idi. Xilafət tarixində xəlifə Əbubəkrin(632-634) rəhbərliyi altında mübarizə aparıldığı "irtidad"-ın (islamdan dönmə fəaliyyəti-Ə.A.) açıq hərbi dirənişi dəf edildikdən sonra, digər daha böyük fitnə xəlifə Osmanın (644-656) qətli ilə zühura çıxdı ki, bununla İslam aləminin bölünməsi, "xarici-"liyin və tədricən davamında digər təriqətlərin yaranması dövrü başlandı.Xilafət tarixinin tədqiqində, "xaricilik" təriqətinin aşkar görülmüş əvvəli xəlifə Əli ibn Əbutalib (656-661) ilə Şam valisi Müaviyə ibn Əbusufyan (ö.680) orduları arasında baş vermiş Siffin döyüşü (657) əsnasında Şam ordusunun məğlubiyyətdən sivişmək çabası kimi Quran vərəqələrini nizələrlə qaldırdıqdan sonra yaranan hakimlik məsələsinə bağlanır. "Xarici"-lər tərəfindən ən çox müraciət edilmiş olan Quranın"Maidə" surəsinin 44, 45, 47-ci ayələri və xüsusən Ənam surəsinin 57-ci; Yusif surəsinin 40,67-ci ayələrində keçən "in əl hukmu illa lillahi" (إِنِ ٱلْحُكْمُ إِلَّا لِلَّهِ) (Qurani-Kerim, 2012, pp.116, 117, 135, 241, 244) kəlamı onlar tərəfindən məşhur "lə hukmə illa lillahi" - (Allah hökmündən digəri yoxdur! Hökm ancaq Allahındır! - Ə.A.) şüarına əsas alınaraq belə bir tarixi məqamda ortaya çıxarılmışdır.

Xaricilik" təriqətinin Xilafət ərazilərinə yayılmasının birinci mərhələsində İraq, şimalında Cəzirə və onunla Azərbaycan kimi,həmsərhəd ərazilər önə çıxmış,təriqətə qarşı mübarizənin davamlılığı nəticəsində isə yayılma coğrafiyası hətta Misirin arxasındakı qərb əraziləri də ehtiva etmişdi. Xilafət ərazilərindən Azərbaycana yayılmış bu təriqətin yaranma səbəbi əslində "xarici"-liyin ərəblərdən hansı hissə ilə təmsil olunması və bilavasitə bu hissənin islamaqədər siyasi kimliyinin tarixi ilə əlaqədardır.İslam tarixində "xaricilik" təriqətinin Siffindən (657) öncəyə aid hadisələrdəki keçmişi tədqiqatlarla xəlifə Osmanın qətlindən (656) və ya Məhəmməd (s.ə.) peyğəmbərin fəaliyyəti dövründən (610-632) əvvələ aparılıb çıxarılmır.Lakin daha keçmişə, Qureyşin yüksəlişi, eləcə də bilavasitə İslam öncəsi digər fəaliyyətinə nəzər saldıqda sonralar "xarici"ləri təmsil etmiş ən qüvvətli ərəb bədəvi qəbilələrindən bəzilərinin həmin dövrdə Məkkə müttəfiqləri olduğu,Qureyş ticarəti mümkünlüyünün məhz həmin qəbilələrin ərazisindən keçməklə reallaşdığı üzə çıxır. "Xarici"lərə məxsus orta əsr mənbələrinin böyük əksəriyyəti qərarlılıqla məhv edilib dövrümüzə catmadığından, onlar haqqındakı bütün məlumatlar tədqiqatçılar tərəfindən xaricilərə qarşı cəbhədə duran İslam alimləri sırasından, orta əsr tarixçilərinin əsərlərindən alınmaqla elmi dairəyə salınmışdır. Erkən orta əsr Azərbaycanında da özünə dayaq tapmış bu təriqət təbliğatçılarının əslində kimlərdən ibarət olmasının təyini, "xarici"-liyin zamanla nə kimi məfkurə dəyişikliklərinə məcbur qalması və bununla əlaqəli digər məsələlər qarşıya qoyulan tədqiqatda araşdırma mövzusunun bir qədər də geniş halda qəbul edilməsini aktuallaşdırır.

İlk olaraq qeyd edilməlidir ki, "xarici" təriqəti tərkibinin bədəvi ərəb qəbilələrindən ibarət olması həm İslam, həm də Xilafət tarixinə həsr olunmuş bir çox tədqiqatlarda öz təsdiqini tapmışdır.İslam tarixindən fərqli olaraq Erkən orta əsrlər tarixinə aid tədqiqatların bəzisində bədəvi ərəb qəbilələri sırasından Təmimin, Əsədin və bir çox digərlərinin İslamdan öncə Qureyşin müttəfiqləri olduğu, bu qəbilələrdən Təmimin Qureyş yüksəlişində müəyyən əhəmiyyətə malikliyi vurğulanmış,hətta aralarındakı evliliklər mənbələr üzrə təsbit edilmişdir. (Kister, 1965, p.158-160) Qureyş öz ticarəti uğrunda yarımadanın ən seçkin bədəvi ərəb qəbilələri ilə müqavilələr bağlamış (Al-Baladhuri, n.d., vol.I, p.59;

Ibn Rabbih, 1983, vol.1, pp.294-295; Ibn Habib al-Baghdadi, n.d.pp.162-163), onların ərazilərindən keçmək məcburiyyətində qalaraq təhlükəsizlik mühafizliyi məvaciblərini ödəməklə məqsədinə nail ola bilmiş, iqtisadi cəhətdən qüvvətləndiyinə və Məkkə əhalisi artdığına görə tədricən bədəvilərdən öz asılılığını xeyli azaltmağa meyl göstərmişdi. Əslində bədəvi ərəb qəbilələrinin Qureyş yüksəlişinə və zənginliyinə qıcıqlanmaları məhz bu zamandan- “cahiliyyə” dövrünün son əsrindən (515-610) etibarən daha bariz şəkildə sezilməyə başlanmışdı. Qureyş əvvəllər Ərəbistan yarımadasının güc mərkəzləri olmuş cənubda Himyərilər dövləti (e.ə.115- e.525), yarımadadan şimalda isə Ləhmilər əmirliyi (273-602) ilə Suriyada Qəssanilər əmirliyi (251-636) və habelə qəbilələrarası güc-qüvvət mütənasibliyi arasında ön yerlərə uzun müddət yaxın belə düşə bilməmiş,ticarətində ərazilərindən keçməli olduğu bədəvi qəbilələrin mallarını hətta mənfəətsiz daşıyıb satmağa razılaşmış (Al-Baghadi, 1985, pp.42-43), Bizans və Sasanilərin nəzərinə çarpacaq bir mövqeyə yalnız VI əsrin ilk rübü ilə əsrin sonu arasındakı müddət ərzində çatmağa başlamışdı. Beləliklə Məkkə yarımadanın ən qüvvətli bədəvi qəbilələri ilə münasibətlərində qeyri-bərabər “hilf”-lərdən tədriclə tam bərabər müqavilələrə doğru uzun bir yol qət etmişdi. Qureyşin “hilf”-müqavilələri bağladığı müttəfiqlərinə nəzər saldıqda biz bu bədəvi qəbilələrinin yarımadada hər biri söz sahibi olmuş ya “ərha”- (dəyirman daşları,- geniş ərazilərinin daxilində mövsümi çevrələr etdiyinə görə dəyirmana bənzədilmiş ki, bu mənbələrə görə cəmi 6 qəbilə idi-Ə.A.) (Abu Ubayd, 1989, p.125; Ibn Abd Rabbih, 1983, vol.3, p.289) qəbilələrindən, ya da “cəmacim”- (bütövlükdə baş sümükləri demək olduğuna görə,belə qəbilədən bir çox digər müstəqil qəbilələrin törədiyi anlamı hasil olur ki,bu mənbələrə görə cəmi 8 və ya 10 idi-Ə.A.) (Al-Andalusi n.d., pp.486-487) qəbilələrindən sayıldığı məlumatı ilə üzləşirik.Bu epitetləri daşımış bədəvi qəbilələrin hər biri 300 ilə 1000 arası süvari döyüşçü çıxara bilmək iqtidarına malik olmuşdu (Ibn Salam, 1989, s125; Ibn Hayyat, 1985, vol.4, p.332). İslamın zühurundan sonra isə sonda məğlub olmuş Qureyşin bu bədəvi keçmiş müttəfiqləri karvanların yol mühafizliyindən, bazarlarda hakimlikdən, bir çox digər imtiyazlarından və basqınla həyata keçirilən qarət qənimətlərindən əlləri üzülmüşdü.

Xilafət orduları sırasına Qureyşin keçmiş müttəfiqləri olmuş bu bədəvi qəbilələr canlı qüvvə çatışmamazlığı ilə əlaqədar yalnız xəlifə Ömər əl Xəttab hakimiyyətinin ortalarından (634-644) etibarən qəbul edilmişdilər. Azərbaycana edilmiş hərbi yürüşlərdəki ərəb qəbilələrinin əksəriyyəti mömin deyil, İslamı hələ kamil başa düşməyən müsəlman döyüşçülər idi. Digər tərəfdən xəlifə Ömərin Xilafət orduları üçün yürüş istiqamətlərinin bölgüsü məsələsində, bədəvi qəbilələrə münasibətdə (məs. şimallı Mudari qəbilələrin daha çox Azərbaycan ilə Xorasana düşmək istəkləri-Ə.A.), mavazinətli siyasi xətti aradan qalxdığına görə və xəlifə Osman hakimiyyətinin sonlarında hərbi yürüşlərin durması səbəbindən alınmış olan qərarlarla bir çox bədəvi qəbilələr gəlirlərinin azalması ilə üzləşmişdilər. Azərbaycana yönəldilmiş ərəb orduları daxilində mərkəzdən razı qalmayan bədəvi qəbilələrinin ümumi kütləsi heç də digər ərazilərdəkindən az deyildi. Beləliklə artıq öncədən bədəvi qəbilələri özlərinin uzun müddət qısqanclıqla gəlirlərini izlədikləri Qureyş tərəfindən bir daha aldadılmış olduğu qənaəti ilə qalmış və yerləşdirilmiş olduqları Kufə, Bəsrə kimi ordu şəhərlərinin qəzəbli bir toplumuna çevrilmişdilər. Azərbaycana Kufədən yönəldilən Xilafət orduları hər 4 ildə əvəzlənmişsə də, əslində əksəriyyəti yenə bədəvilərdən ibarət digər bir ordunun gəlişinə yol açılmış olurdu. Ərəb bədəvi qəbilələri daxilində böyük nəsildən cavan nəslə ötürülmüş “Əyyam əl ərəb”(döyüş qəhrəmanlığı günləri-Ə.A.) şeir və rəvayətləri cahiliyyə Ərəbistanının İslam öncəsi tarixinin 150 illik dövrünü bağladığı üçün, bu bədəvi qəbilələrinin yaddaşında “cahiliyyə”dövrü Qureyş öndərliyinə olmuş qısqanclıq, İslamın zühuru ilə yox olmaq əvəzinə növbəti nəsildə yenilənərək bədəvi tündlüyünün daha da sərt bir şəklini almışdı.Məhəmməd ibn Cərir ət-Təbəri (839-923) “Tarix ər-rəsul va əl muluk” əsərinin bir neçə yerində sonradan “xarici”-lərə dönüşmüş bədəvi ərəb qəbilələrinin təriqət yaranması ərəfəsindəki Qureyşə zidd daxili tutumlarından müəyyən nümunələr çatdırmışdır. Tarixçinin yazdığı üzrə Bəsrədə xəlifə Əli ibn Əbutalibə qarşı dəstək toplamaq əsnasında Abdullah ibn Zubeyr (v.73\692) müraciət etdiyi Əbdülqeys

qəbiləsinə mənsub birindən tənəli cavab almışdı: - “Siz mühacirlər Rəsulullaha ilk icab edənlərsiz və fəzilətiniz buna görədir,sonra insanlar sizin kimi islama daxil oldu və Rəsulullah vəfat etdiyi səbəbindən, içərinizdən birinə biət etdiniz və vallahi bizdən bu barədə bir şey soruşmadınız, biz razılaşıb tabe olduq, Allah onun əmirliyini müsəlmanlar üçün bərəkətli etdi.Sonra vəfat etdi, Allah ondan razı olsun.Sizdən birini ona xələf etdiniz və bu işdə bizlə məşvərətdə bulunmadınız, razı qalıb uyduq. Əmir öldükdə 6 nəfərlik heyyətlə, yenə bizlə məşvərət etmədən Osmanı seçib biət etdiniz” (Al-Kufi, 1991, vol.4, pp.469-470).

Mənbədən göründüyü kimi “Xarici”lik məfkurəsinin əsasına bədəvilərdən Mudarın Təmim, Rəbiənin Bəkr, Şeyban və digər qəbilələrinin Qureyşə zidd olmaq mövqeyi daxil idi.Bunun qarşılığı gecikmədən bütün Xilafət əhalisi üçün bəlli olmuşdu: -mərkəzi hakimiyyətə qarşı hər bir çıxış və müqavimət üsyana çevrildiyindən bu siyasət Azərbaycan nümunəsində də özünü biruzə vermişdi. Xəlifə Ömər Rey və Azərbaycana Kufədən yönəldiləcək ordu birliklərinin qəbiləvi cəhətdən yalnız hər hansı vahid bir ərəb bədəvi konfederasiyası halında olmasının qarşısını, ordu şəhəri özəyinin bir çox ərəb qəbilələrinin yerləşmə məkanı kimi qurulması tədbiri ilə almış, beləliklə daha çox müxtəlif qəbilələrdən mütəşəkkil ordulara üstünlük vermişdi. “Xarici” təbliğatının əvvəlcə ordudakı gəlirləri azalmış bədəvi kütləsi arasında aparılması firqə başçıları üçün məqsədə nail olmağın ən asan yolu olmuşdu. Xilafət ordu birlikləri arasında “xarici”-liyin yayılması gizli olaraq aparılmışdır, çünki mənbələr erkən “xarici” fəaliyyətlərindən yalnız silahlı çıxışlara yer vermiş, “xarici”-lərin məfkurə məsələləri isə yalnız sonralar yazılmış qaynaqlarda işıq üzü görmüşdü. Məxəzlərdə İslam dininin çox erkən çağlardan Azərbaycan əhalisi arasında qəbul olunması və getdikcə yayılmasını sübut edən faktlar yer almışdır (Sharifov, 2022, p.69). Eyni zamanda bununla yanaşı biz mənbələrdə artıq Azərbaycan əraziləri hüdudlarını bildirən yer adlarının baş vermiş ən erkən “xarici” çıxışlarında hallanması halı ilə üzləşirik ki,bu əvvəlcədən müəyyən müddət bölgədə aparılmış olan məxfi təbliğat işinə dəlalət edir.Bilvasitə Azərbaycan ərazilərinin hüdudlarında “xarici” təbliğatının aparılması tarixi, Xilafətin çox erkən çağına təsadüf edir. Əhməd ibn Yəhya ibn Cabir əl Bəlazuriyə görə “xarici” rəhbərlərindən Fərvə ibn Nofəl əl Əşcai xəlifə Əli ibn Əbutalibin xəbərdarlığı sonunda Nəhrəvandan (658) döyüş ərəfəsi ayrılaraq 500 süvari ilə əvvəlcə Dəskərəyə, oradan isə Şəhrəzura çəkilmişdi (Al-Baladhuri, n.d.vol.5 ,p.169). Nəhrəvanda qurtulub sağ qalanlardan Şəbib əl Əşcai və dəstəsi Kufə valisi Muğirə ibn Şuubənin təqibə mükəlləf etdiyi hərbi qüvvə tərəfindən Azərbaycanda haqlanıb qətl edildiyinə (Khalifa ibn Khayyat, n.d., p.209) görə, “xarici”-lərin bura yönəlməyinin səbatlı bir əsası olmuşdu. Bu silsilədən olan bir digər məlumatı tarixçi İzzəddin ibn əl Əsir (1161-1233) çatdırmışdır. Məhəmməd ibn Cərir ət-Təbərinin “Tarix ər rəsul val muluk” əsərindən faydalanmış ibn əl Əsir bu əsərin dövrümüzə gəlib çatmayan nüsxəsindən istifadə etmişdir. Təbəri 85 illik ömrünün üçdəbir hissəsini səyahətlərdə keçirdiyindən, görünür “xarici” müəlliflərinin bəzi bölgələrdə məhv edilməmiş əsərlərinin qalıqlarından istifadə etmək imkanına malik olmuşdur. İbn əl Əsirin Təbəriyə isnadən yazdığından bəlli olduğuna görə “xarici” Əbu Məryəm əs-Səad ət-Təmimi ərəb olan 6 nəfərlik heyyətlə Şəhrəzura getmiş (X əsr müəllifi əl İstəxriyə görə Azərbaycan hüdudları kimi sadalanmışdır - Ə.A.) və sonra hicri 38-ci ildə (659) ərəblərlə bərabər məvalidən də ibarət 400 süvarisi ilə Kufənin 5 fərsəxliyinə qədər yaxınlaşa bilmişdi (Ibn al-Athir vol.3, p.242). Bu məlumatdan məlum olur ki, ”xaricilər” yalnız ərəblər deyil,Nəhrəvan döyüşündən sonra, hələ xəlifə Əli ibn Əbutalibə etdikləri sui-qəsddən (661) əvvəl, təbliğatlarını getdikləri bölgə əhalisi olan (imkanlı-Ə.A.) “ə’cəm”-lər (qeyri-ərəb) arasında da aparmağa başlamışdılar.

”Xaricilər” xəlifə Əlinin qətl edilməsindən xeyli sonrakı dönəmdə (hicri 64-cü ildən sonra-Ə.A.) getdikcə daha çox firqələrə bölünmüşdülər. Əməvilərin Ziyad ibn Əbihi (v.673), onun oğlu Ubeydullah ibn Ziyad (v.686) və Həccac ibn Yusuf (v.714) ilə Mühəlləb ibn Əbu Sufra (v.702) kimi hərb rəhbərlərinin “xarici”-lərə qarşı aramsız təqibləri səbəbindən İraq Cəzirəsində Mosul və ətrafı,qısa aradan sonra isə həmsərhəd Azərbaycan da “sufriyyə xarici”-liyinin yayıldığı bölgələrə çevrilmişdilər. Əməvilər hakimiyyəti zamanına (661-750) “xarici” si-

lahlı çıxışları silsiləsindən ən təhlükəli olanları təsadüf etdiyindən mərkəzin qətiyyətli tədbirlər görməsi firqənin yayılma coğrafiyasını Xilafət ucqarlarına yaymışdı. Xaricilər bunu təbliğatlarının genişlənməsi üçün bir fürsət kimi istifadə etmişdilər. "Xarici"-lərin düşüncələrində Əməvilər və eləcə də Abbasilər hakimiyyəti- daim qəsbçilərin qeyri-qanuni hakimiyyəti kimi tanınmışdır. Xəlifə Osman ibn Əffan hakimiyyətinin (644-656) ikinci yarsından başlayaraq yürüşlərdə iştirak edən bədəvi qəbilələrə qarşı vaxtı ilə xəlifə Ömərin yürütdüyü müvazinətli, yatışdırıcı, bərabərçiliyə əsaslanan siyasəti aradan qalxmış və Müaviyənin istəyi ilə Şamdan Rəbiə ilə Mudar birliklərinin keçmişdən düşmənçilikləri olan qəbilələri ki, bunlardan Təmim ilə Bəkr, Təqlib və Şeyban "xarici"-liyin özəyini təşkil etmişdilər, sıxışdırılaraq İraq Cəzirəsi ilə Azərbaycana və buralardan da Xorasana yönəldilməyə başlanmışdı. Əməvilər hakimiyyətə keçdikdə artıq bünövrəsi qoyulmuş bu siyasət davam etdirilmiş, çalışmışdılar ki, Şam mərkəzli Suriyda yalnız yəmənlilər əksəriyyət təşkil etmiş olsun. Hələ Siffin döyüşündən (657) əvvəl Kufə "kurra"-sının (Qur'an biliciləri, hafizləri) bədəvilərdən olan bir qismi xəlifə Əli ibn Əbutalibi döyüşdən çəkindirməyə cəhd etmiş, nail ola bilmədikdə isə, Nəhrəvan döyüşündən sonra suğur bölgələrində mükəlləf edilmələrini irəli sürdüklərinə görə əfv edilərək Reyə göndərilmişdilər (At-Tabari, n.d. vol.5, pp.173, 174, 181). "Kurra"-nın xəlifə Əli ibn Əbutalib ilə anlaşmayan bu hissəsi gizli "xarici" təbliğatçıları olduqlarına görə, bütün ucqarları hədəf alaraq sonradan fəal şəkildə Mudari ilə Rəbiə qəbilələr birliklərinin yerləşdirildikləri Cəzirə ilə Azərbaycanın əhalisi arasında da fəal "xarici" təbliğatı işinə başlamışdılar.

"Xaricilər"in təkcə Müaviyə ibn Əbusufyanın hakimiyyəti (661-680) dönəmində sayı 10-dan artıq olmuş üsyanları dəf edilmişdi. Əməvi hakimiyyəti (661-750) ərzində baş vermiş bütün "xarici"üsyanlarının mənbələr üzrə tədqiqindən maraqlı bir qənaət yaranır:- Raşidi xəlifələrindən Ömər əl Xəttab zamanının (634-644) yarsından başlayaraq,eləcə də sonralar Əməvi dövrü boyu davam etmiş bütün inzibati təbəddülatlara baxmayaraq Azərbaycan əraziləri İraq Cəzirəsi ilə bərabər Cəzirə adını daşımış böyük, inzibati vahidin tərkibində qalmışdır (Bunyadov,1989,pp.135-136). Əməvi dövrünə işıq sala bilən mənbələrdə məlumatların azlığı səbəbindən Azərbaycan "xarici"-liyin əsas qərargah bölgəsi görünümünü tam ala bilmir. Beləki, Əməvi hakimiyyəti ərzində bir çox "xarici" üsyanlarının yaranma yerlərindən biri olaraq Cəzirə adı hallanır və nə zaman ki, "xaricilər" qeyri-bərabər döyüşdən qaçmaq və ya yeni qüvvələr toplamaq, təbliğata başlamaq üçün hər hansı istiqamətə yönəlmək istədikdə Azərbaycan istilahı belə bir bölgənin ünvanına çevrilmiş olur. Məsələn Xəlifə ibnXəyyata görə Dahhaq ibn Qeysə biət etmiş Ubeydə ibn Suvar ət-Təqlibi xeyli sonra baş vermiş ölümünə kimi, bir neçə məsləkdaşı ilə bərabər Azərbaycanda gizlənib xarici təbliğatını aparanlardan biri olmuşdu (Khalifa ibn Khayyat, n.d.,p.376). Cəzirə və xüsusən Mosul ilə ətrafı VII əsrin üçüncü rübündən etibarən "xarici"-lərin sufriyyə qolunun dayaq məntəqəsinə çevrilmiş olduğundan, sufriyyə mənsubları buradan həmsərhəd Azərbaycana keçərək təbliğat coğrafiyalarını şimala doğru daha fəal surətdə genişləndirməyə başlamışdılar. Əbulhəsən Əli ibn İsmayıl əl Əşari (260\873-324\935) "xarici"lərin digər əsas üç qollarının "sufriyyə"-dən ayrılıb ( و كل الاصناف سوي الازرقة والاباضية والنجدية فانما تفرعوا من الصفرية ) (1 (Al-Ashari, vol.I, p.169) yarandığını qeyd etmişdir.

"Xarici"lərin hicri 64-70-ci illər arasındakı bölünməsindən yaranmış qollarının başçılığı əksəriyyətlə Mudarın Təmim və Rəbiənin Şeyban qəbiləsi mənsubları daxilində qalaraq sadəcə əvəzlənmə həyata keçirilmişdi. Haccac ibn Yusufun tədbirləri ilə əlaqəli olaraq Kufədən çıxmağa məcbur qalmış "xaricilər" Matar ibn İmranın öldürülməsindən sonra, Salih ibn Musərrih ət-Təmiminin xitabət təsiri ilə yenidən toplanıb üsyan hərəkətinə keçdilər və bir ilə yaxın müddətdə davam etmiş hərəkatda, 695-ci ildə Salihin döyüşdə öldürülməsi ilə rəhbərlik Şəbib ibn Yəzid əş-Şeybaninin öhdəsinə keçmişdi (Khalifa ibn Khayyat, n.d.,p.274). Şəbib dəfələrlə Həccacın göndərdiyi orduları məğlub etmiş, yerini tez-tez dəyişməklə gözlənilməyən istiqamətlərdən Xilafət hərbi qüvvələrinə zərbələr endirərək mərkəz üçün böyük sıxıntılar yaratmışdı. Həccac növbəti tədbirlərindən birində Suveyd ibn ər-Rəhman əs-Səadi rəhbərliyindəki ordunu Şəbibə qarşı yönləndirmişdi. Şəbib

(ö.77\697) Kufə istiqamətinə gedəcəyi bir görüntü yaradaraq gecə zamanından istifadəylə şimal-şərq tərəfə yürüşü davam etdirib,, izi səhv salmaq üçün Ənbardan keçməklə Azərbaycana çıxıb getdi (Dixon, 1971, p.185; 29, Ibn Abd Rabbih, 1983, vol.6, s240). Bu səbəbdən Azərbaycan ərazilərində "xarici" çıxışlarının məxəzlərdə qeydə alınmadığı illər "xarici"-lərin hazırlıq və təbliğat işinin dayanmış olması kimi qəbul edilməməlidir. Salih ibn Müsərrih ilə Şəbib ibn Yəzidin çıxışları böyük Cəzirə inzibati vahidinin bütün şimal-şərq istiqamətləri daxilində cərəyan etmişdi.

VII əsrin son rübü ilə VIII əsrin birinci rübü ərzində Əməvi dövlətinin zəifləmə işartılarının daha da çoxalması fövqündə Sufriyyə "xarici"-lərinin bütün təbliğat səyləri 695-ci ildən etibarən genişlənərək Cəzirədən Azərbaycan ərazilərinə yönəldilməsini sonrakı illərdə həmin istiqamətin ayrı-ayrı bölgələrundə baş vermiş üsyanlar təsdiq etmişdi."Xarici"-liyin nüvəsini təşkil etmiş bədəvi qəbilələrindən Təmimin Azərbaycandakı yayılma sıxlığını bildirən məlumatlardan birini bizə tarixçi əl Yəqubi çatdırmışdır. Yəqubinin yazdığı üzrə mütəqəlliblərdən Mühəlhil ət-Təmimi qısa müddətə (1 və ya 2 il – Ə.A.) Azərbaycanı öz hakimiyyətinə tabe edə bilmişdi (Al-Yagubi, n.d. vol.2, p.427). Xilafətin erkən dönəmində buna nail olmaq üçün həmqəbilələlilərinin kütləsi kifayət qədər böyük olmalı idi. Ümumiyyətlə "xarici"-lərin "sufriyyə" qolu şair və alimlərin sayı nəzərindən "xarici" qolları arasında nəzəriyyəçilər görünümünə malik bir zümrəni təmsil etməsi ilə tanınmışdı.Salihin ölümündən sonra təbliğatı ət-Tirimmah ibn Hakim (v.125\743) və Dahhaq ibn Qeys əş-Şeybani kimi "xarici" xətibləri aparmışdılar. Azərbaycanın Xilafət dövrü tarixi üçün önəmli ola biləcək və təəssüf ki,müasir çağımıza gəlib çatmayan "Fütuhu-l-Ərməniyyə" (Ola bilsin ki, bu əsərdə, Bizansın ərəblər tərəfindən mənimsənilmiş inzibati bölgüsünün qalığı kimi, ibn Xordadbehin əsərində əks olunmuş hər bir 4 Ərməniyyəyə aid fəth bəhsi yazılmış idi- Ə.A.) əsərinin müəllifi Əbu Ubeydə Müəmmar ibn Müsənna (110\728-213\827) "xarici"lərin "sufriyyə" qoluna mənsub olmuş (An-Nadim, 2009, vol.I, part 1, p.152) və Əbu Bəkr Əhməd ibn Əli Xətib əl Bağdadi (vəf.hc 463) bizə "mötəzili" Əbu Osman Amr ibn Bəhr əl Cahizin (155\771-255\869) Əbu Ubeydə haqqında:- « لم يكن في الارض خارجي ولا جماعي اعلم بجميع العلوم منه»-"Yer üzündə bütün elmlər (üzrə) ondan (irəli) nə xarici, və nə də cəməi(sünni- Ə.A.) bir alim olmadı" söyləməsini (H.Al-Baghdadi 2004, vol.3, p.252) çatdırmışdır.

"Xarici"lərin "sufriyyə" və "ibadi"kimi qolları "əzraqi"-lərin məfkurələrində olmuş ifratlıqları qəbul etmədiklərinə, özlərindən olmayan müsəlmanlara "əzraqi"-lərlə müqayisədə mülayim münasibət bəslədiklərinə görə, kütlələri tərəflərinə çəkməkdə daha müvəffəqiyyətli nəticələr əldə etmiş olurdular. Ümumiyyətlə orta əsr İslam dünyası sünni alimlərinin az sayılmayan bir hissəsi məhz "xaricilərin" "sufriyyə" və"ibadi"qollarının məfkurə məsələlərindəki mülayimlik fərqlənmələri ilə əlaqədar olaraq onları kafir elan etməkdən çəkinmişdilər. Əhməd ibn Əli ibn Həcər əl Əsğəlani (hc.773\1372-852\1449) böyük əksəriyyət sünni alimlərinin şəkklə əlaqədar "xarici"ləri İslamdan xaric bir zümrə saymaq təşəbbüsündə olmadıqlarını (جمهور العلماء الي ان الخوارج غيرخارجين عن جملة المسلمين......واذ واقع الشك في ذلك لم يقطع عليهم بلخروج من الاسلام,لان من ثبت له عقد الاسلام,)(8) Al-Asgalani, n.d. vol.12,p.301) qeyd etmişdir. Bəlazuri Dahhaq ibn Qeys əş-Şeybaninin xitabətindən əvvəl "xarici"-lərin Azərbaycandakı fəaliyyətindən bəzi qırıq-kəsik xəbərlər vermişdir. Əli ibn Məhəmməd əl Mədainiyə (135\752-228\843) isnadla Bəlazuri "xarici" Bistam əş-Şeybaninin Azərbaycanda xitabət apararaq, tərəfdalar toplayıb 126\743-44-cü ildə üsyan qaldırmasını yazmışdır (Baladhuri, n.d. vol 9., pp.251-252). Fəaliyyəti Azərbaycana qədər çatmış digər bir "xarici", təbliğat və təşviqatı ilə mənbələrə düşmüş, Asəm əl Kufinin Dahhaq əl Həruri, Xəlifə ibn Xəyyatın Dahhaq ibn Qeys və ibn əl Əsirin isə Dahhaq ibn Qeys əş-Şeybani kimi tanıtdırmış olduqları şəxsdir. Dahhaq ibn Qeysin təşviqi ilə Ubeydə ibn Suvar ət-Təqlibi kimi "xarici" (26, s376) və Musafir ibn Kəsir kimi beyləqanlı, birincisi Azərbaycanda, digəri isə Arranda təbliğat aparmış, silahlı çıxışların təşkilatçıları olmuşdular. Beyləqanlı Musafir ibn Kəsirin silahlı çıxışına qatılmış həmyerlilərinin kütləviliyi (Al-Kufi, 1991, vol.8, pp.307-308; Bunyadov, 1989, p.166; Velikhanli, 1993, p.47) "xarici"təbliğatının münbit zəminə düşməsindən xəbər verir.La-

kin Musafir “xarici”-lərin qüvvəsindən abbasilər təhlükəsi qarşısında əvvəlcə öz məqsədi üçün faydalanmağı nəzərdə tutmuşsa da, qısa bir zamanda onun fəaliyyəti əsil “xarici”hərəkatına çevrilmişdi. Abbasilərin hakimiyyəti ələ almaqları ilə xaricilərin Xilafət mərkəzinə qarşı oturuşmuş əvvəlki münasibətində heç bir məfkurəvi dəyişiklik baş vermədi. Azərbaycanda hakimiyyətin Əməvilərdən Abbasilərə keçidi birincilərin son inzibatçısı İshaq ibn Müslim əl Uqeylinin “xarici” ixtişaşlarına rəhbərlik etmiş beyləqanlı Müsafir ibn Kəsirlə uzunmüddətli döyüşləri fövqündəki bir vəziyyətdə baş verdi (Al-Kufi, 1995, pp.56-58). “Xarici” təbliğatının bölgələrdə fasiləsiz olaraq aparılmasının sübutu kimi,artıq ikinci Abbasi xəlifəsi Əbu Cəfər Mənsuru n dövründə (754-775) Cəzirə və Azərbaycan ərazilərində Xilafətin 6-7 ordusunu məğlub etmiş Mülebbed ibn Hərmələ əş-Şeybaninin (ö.137\755) rəhbərlik etdiyi üsyanın qalxması olmuşdu (Al-Balazuri. n.d.vol.3, p.336). Azərbaycan ərazilərində digər böyük silahlı “xarici”hərəkatı xəlifələrdən Hadi (785-786) ilə Harun ər-Rəşidin (786-809) zamanına da düşmüş olan Əbu Müslim əş-Şəri (Canını cənnət əvəzində haqq yolu üçün Allaha satanlar-Ə.A.) tərəfindən rəhbərlik edilmiş üsyandır (Al-Kufi, 1991, vol.8,p.381). Harun ər-Rəşidin dövründəki növbəti hərəkat, Xəlifə ibn Xəyyatın təqdim etdiyinə görə, fəaliyyət coğrafiyası Azərbaycan və Ərməniyyə ilə Cəzirəni əhatə etmiş Vəlid ibn Tarif əş-Şeybaninin rəhbərliyi ilə 178\794-cü ildə başlamış olduğu “xarici”silahlı üsyanıdır (Khalifa ibn Khayyat,n.d., pp.451-452).”

Xarici” üsyanlarının davamlılığı Azərbaycanda demək olar ki, Babəkin rəhbərlik etdiyi xürrəmilər hərəkatının ərəfəsinə gəlib çatmışdı. Xilafət mərkəzinə qarşı olmuş bütün hərəkatlar “xariçi”-lik damğası vurularaq təqdim edilib tanıdılırdı. Əhali arasında “xarici”-lər haqqında məlumatlı olanlardan yayılan xəbərlər ordu sıralarında çaşqınlıq törədərək Quran oxuyub namaz qılan bir icma ilə döyüşə getməyin şübhə və təşvişini daha da artırdığı səbəbi ilə arxayınlıq üçün belə hallarda üləma və hətta məzhəb başçılarına müraciət edilərək izin istənilirdi. Məsələn Əhməd ibn Hənbəlin (164\780-241\855) davamçısı olmuş Əbubəkr əl Xəllal (“Sirkəçi”) əl-Hənbəli (234\849-311\923) öz əsərində birisinin Əhməd ibn Hənbəlin yanına gələrək Babəklə müharibəyə getməsinin doğru olması üçün əminlik izni almasını qeyd etmişdir (Al-Khallal, 1994, vol.I, pp.148-150). Babək hərəkatı haqqında “Əxbaru Babək” adıyla ayrıca bir əsər yazmış Vağıd (Ocağ yandıran-Ə.A.) ibn Amr ət-Təmiminin dövrümüzə çatması mümkün olmayan bu mənbəsindən iqtibaslar vermiş ibn Nəidim (v.990 ilə 995 arasında-Ə.A.) onun həyatı bir tərəfə,hətta təvəllüdü ilə vəfat tarixi haqqında belə görünür ki, heç bir məlumat əldə edə bilməmişdi(Al-Nadim, 2009, vol 2, p.417).”Xarici”məxəzlərinin qərarlılıqla kütləvi olaraq məhv edilməsi nəzərə alındıqda,Vağıd ibn Amr ət-Təmiminin həm “xarici”-liyin bünövrəsini qoymuş qəbilələrdən biri kimi, Təmim qəbiləsinə mənsub olması,həm də əsərinin Babəkə həsr edildiyi kitabın taleyinə belə bir sonluq möhürü vurmuşdur.

**Nəticə**

Aparılan təhlil göstərir ki, “xaricilik” fenomenının Azərbaycanla bağlılığı mənbələrdə yalnız təsadüfi epizodlar şəklində görünmür;əksinə, Cəzirə ilə inzibati-siyasi bağlılıq və sərhəd zonası statusu sayəsində Azərbaycan müəyyən dövrlərdə xaricilərin hərəkət məkanında “təhlükəsizlik” geri çəkilmə və yenidən toparlanma istiqaməti kimi çıxış etmışdir.Xariciliyin sosial dayaqları – xüsusən ordu şəhərlərində toplanan narazı bədəvi kütləəri-mərkəzin sərt təqib siyasəti ilə üzləşlikcə, hərəkanın coğrafiyası Xilafətin ucqarlarına doğru genişlənmiş və bu genişlənmədə Azərbaycan-Cəzirə xətti dəqqətəlayiq rol oynamışdı.

Eyni zamanda, xariciliyin ideoloji əsasları siyasi legitimlik mübarizəsində effektiv vasitəyə çevrilmiş, xüsusən daha mülayim qolların (sufriyyəvə s.) kütlə cəlbetmə imkanlarını artırmışdır. Azərbycan mühitində bu təblığatın uğur qazanması üçün inzibati-ərazi şərtlər ilə yanaşı, sərhəd bölgəsi kimi daimi hərbi hərəkətlik, qəbilə transferləri və mərkəzin resurs bölgüsü siyasətin yaratdığı sosial gərginlik də mühün amillərdən olmuşdur. Nəticə etibarilə, Xilafətin xaricilərlə mübarizəsi kontekstində Azərbaycan, həm hərbi-siyasi təhlükəsizlik baxımından, həm də ideoloji mobilizasiya baxımından izlənililməsi vacib olan sərhəd məkandır və bu fakt erkən orta əsr Azərbaycan tarixinin Xilafət daxili proseslər ilə birgə baxılmasına zəruriliyini təsdiq edir.

## ƏDƏBİYYAT

1.Kister M.J.(1965) Mekka and Tamim. (Aspect of Their Relations). p 113-163 in Studies in Jahiliyya and Early Islam.Variorum Reprints.

2.Abd al Ameer Abd Dixon(1971).The Umayyad Caliphate 65-86\684-705.London

3.Əhməd ibn Əsəm əl Kufi.(1995) Fəthlər kitabı.Bakı.

4.Qurani-Kərim və sözbəsöz tərcüməsi (.2012).İpəkyolu Nəşriyyatı. Bakı

5.Nailə Vəlixanlı.(1993) Ərəb Xilafəti və Azərbaycan. Bakı.

6.Şahlar Şərifov (2022). Erkən Xilafət dövründə Azərbaycanda ictimai-siyasi və mədəni həyat. Bakı.

7.Ziya Bünyadov.(1989) Azərbaycan VII-IX əsrlərdə. Bakı. (kiril əlif.)

8 Əhməd bin Əli bin Həcər əl-Əsqəlani, *Fəthül-Bari*, 12-ci cild, əl-Məktəbə əs-Sələfiyyə.

9. Əhməd bin Məhəmməd bin Əbd Rəbbih əl-Əndəlusi (1983), *əl-İqdül-Fərid*, 3-cü cild, Darül-Kutub əl-İlmiyyə, Beyrut.

10. Əbu Cəfər Məhəmməd bin Həbib, *Kitab əl-Mühəbbər*, Darül-Afaq əl-Cədidə, Beyrut.

11. Əbu Cəfər Məhəmməd bin Həbib əl-Bağdadi,(1985) *Kitab əl-Münəmməq fi Əxbari Qüreyş*, Aləmül-Kutub, Beyrut.

12 Xəllal, *əs-Sünnə (1994)*, 1–3-cü cildlər, Darür-Raya, Riyad.

13. Əbu Bəkr Əhməd bin Əli əl-Xətib əl-Bağdadi (2004), *Tarix Bağdad*, 13-cü cild, Darül-Kutub əl-İlmiyyə, Beyrut.

14.Əbu əl-Həsən Əli bin İsmayıl əl-Əşəri,(1950) *Məqalatül-İslamiyyin və İxtilafül-Musəllin*, 1-ci cild, Qahirə.

15. Əbu əl-Həsən Əli bin Məhəmməd bin əl-Əsir əş-Şeybani,(1987) *əl-Kamil fit-Tarix*, 3-cü cild, Darül-Kutub əl-İlmiyyə, Beyrut

16.Əbu əl-Fərəc Məhəmməd bin İshaq ən-Nədim,(2009) *Kitab əl-Fihrist*, 1-ci cild, 1-ci hissə, Müəssisətül-Furqan lit-Turasil-İslami, London.

17. Əbu əl-Fərəc Məhəmməd bin İshaq ən-Nədim, (2009) *Kitab əl-Fihrist*, 2-ci cild, London,

18. Əbu Übeyd əl-Qasim bin Səllam, (1989) *Kitab ən-Nəsəb*, Darül-Fikr, Beyrut

19. Əbu Məhəmməd Əhməd bin Əsəm əl-Kufi(1991), *Kitab əl-Fütuh*, 8-ci cild, Darül-Ədva, Beyrut

20. Əbu Məhəmməd Əli bin Əhməd bin Səid bin Həzm əl-Əndəlusi, *Cəmhərət Ənsab əl-Ərəb*, Darül-Maarif, Qahirə.

21. əl-Bəlazuri Əhməd bin Yəhya bin Cabir, *Ənsabül-Əşraf*, 1-ci cild, Darül-Maarif, Misir.

22. əl-Bəlazuri Əhməd bin Yəhya bin Cabir (1996), *Ənsabül-Əşraf*, 4-cü cild, Darül-Fikr, Beyrut

23. Cavad Əli (1993), *əl-Müfəssəl fi Tarixi əl-Ərəb qabləl-İslam*, 4-cü cild, Bağdad

24.Xəlifə bin Xəyyat(1985), *Tarix Xəlifə bin Xəyyat*, Riyad.

25 ət-Təbəri Əbu Cəfər Məhəmməd bin Cərir, *Tarix ər-Rusul vəl-Müluk*, 4-cü cild, Darül-Maarif, Misir.

26. ət-Təbəri Əbu Cəfər Məhəmməd bin Cərir, *Tarix ər-Rusul vəl-Müluk*, 5-ci cild.

27. ət-Təbəri, *Tarix ər-Rusul vəl-Müluk*, 6-cı cild.

28. əl-Yəqubi Əhməd bin Əbi Yəqub bin Cəfər bin Vadih(1995), *Tarix əl-Yəqubi*, 1-ci cild, Darus-Sadir, Beyrut.

29. əl-Yəqubi Əhməd bin Əbi Yəqub bin Cəfər bin Vadih, *Tarix əl-Yəqubi*, 2-ci cild

**Резюме**

**Наргиз Ахундова, Айдын Ализаде**

**Об особенностях, связанных с Азербайджаном в борьбе Халифата с хариджитами**

В статье анализируются идеологические основы, социальная база и география распространения движения хариджитов в ранний период Арабского халифата, а также исследуется роль Азербайджана в этих процессах. Показано, что хариджизм представлял собой не только религиозно-сектантское течение, но и политическое движение, сформировавшееся в условиях племенной конкуренции, социльной напряженности и кризиса политической легитимности. Отмечается, что территория Азербайджана в ряде случаев выступала как пространство отступления, укрытия и повторной мобилизации хариджитских отрядов. На основе источников обосновывается, что административная и политическая связь региона Джазира с Азербайджаном сыграла важную роль в распространении данного движения.
***Ключевые слова:*** *хариджизм, Арабский халифат, Азербайджан, Джазира, ранний ислам, религиозно-политические конфликты*

**Summary**

**Nargiz Akhundova, Aydin Alizade**

**On the Azerbaijan–Related Aspects in the Caliphates Struggle against Kharijites**

The article analyzes the ideological foundations, social base and geographical spread of the Kharijite movement in the early period of the Arab Caliphate and examines the role of Azerbaijan in this process. It is demonstrated that Kharijism was not only a religious sectarian movement but also a political phenomenon that emerged in the context of tribal competition. Social tensions and a crisis of political legitimacy. The study notes that the territory of Azerbaijan, in several cases, functioned as a zone of retreat, refuge and regrouping for Kharijite forses. Based on historical sources, it is argued that the administrative and political connection between the Jazira rgion and Azerbaijan plaed a significant role in the spread of this movement.
***Keywords:*** *kharidjizm,Arab Califate, Azerbaijan, Jazira, Early Islam, historical and political features*